# Korona virusu bəhanəsi ilə qadınlara nəsihət[1]

**Müəllif**: Rövşən Əhmədzadə[2]

**Alınan Tarix**: 24/07/2020 **Qəbul Tarixi**: 06/09/2020

**Məqalənin xülasəsi**

Allah-təalanın insanlıq üçün qoyduğu qanunlar Qiyamətə qədər öz aktuallığını qoruyacaq. Əziz Peyğəmbərimizin (salləllahu ələyhi və alihi və səlləm) zamanında ümmətin etdiyi günahlar, O Həzrəti narahat etdiyi kimi, bu gün edilən günahlar da Zəmanə Sahibini (əccələllahu təala fərəcəhuşşərif) narahat edir. Bəli, həmin gühanlardan biri də hicabsızlıqdır. Dünyaya yayılan “korona” adlı virusun insanların həyatına təsiri də heç kimə gizli deyil. Biz bu hadisəni bir fürsət sayıb əziz bacılarımıza bəzi nəsihətləri edirik.

**Açar Sözlər**: İslam, Korona, Qadın, Hicab.

Əziz bacım! Yəqin ki, dünyaya yayılan “korona” adlı virusun insanların həyatına təsirini müşahidə etdin. Bu virus, tamamilə yaşayışı alt-üst etdi. Nizam-intizam bir-birinə dəydi. Bağçalar, orta məktəblər, institutlar, bir sözlə dövlət müəssisələri bağlandı. Bir ökədən başqasına, hətta bir şəhərdən digərinə getmək qadağan olundu. Minlərlə insan bu dəhşətli virusdan həm xəstələndilər, həm də dünyasını dəyişdilər.[3]

Həqiqətən insanların əksəriyyəti nankordur.[4] Belə ki, onlara hər hansı bir çətinlik və bəla üz verərkən tez Allahı çağırar, öz əməllərindən peşman olduqlarını etiraf edər və bu bəladan qurtulmaq üçün hər bir vasitəyə əl atarlar. Həmin bəla uzaqlaşanda isə onlar yenidən etdikləri fitnə-fəsada qayıdarlar. Qurani-Kərim “Yunus” surəsinin 22-ci ayəsində belə buyurur:

«حَتَّى إِذَا كُنتُمْ فِي الْفُلْكِ وَجَرَيْنَ بِهِم بِرِيحٍ طَيِّبَةٍ وَفَرِحُواْ بِهَا جَاءتْهَا رِيحٌ عَاصِفٌ وَجَاءهُمُ الْمَوْجُ مِن كُلِّ مَكَانٍ وَظَنُّواْ أَنَّهُمْ أُحِيطَ بِهِمْ دَعَوُاْ اللّهَ مُخْلِصِينَ لَهُ الدِّينَ لَئِنْ أَنجَيْتَنَا مِنْ هَـذِهِ لَنَكُونَنِّ مِنَ الشَّاكِرِينَ».

Nəhayət, siz gəmilərdə olan və gəmilər öz sərnişinlərini xoş və mülayim bir küləyin vasitəsilə hərəkət etdirən və onlar ondan xoşhal olduqları zaman, (birdən) həmin gəmilərə şiddətli bir külək əsər, (dənizin) dalğa(sı) hər tərəfdən onlara çırpılar və onlar (dalğaların və bəlanın) mühasirəsində olmalarına yəqinlik edərlər, (o halda) iman və etiqadla, saf niyyətlə Allahı çağırarlar: Əgər bizi bundan (bu təhlükədən) qurtarsan, mütləq şükür edənlərdən olacağıq.

Əziz bacım! Diqqət etdinmi, pandemiyanın yayılması nəticəsində hicaba nifrət hissilə yanaşan, açıq-saçıq gəzən və Allah-təaladan qorxmayıb başını bağlamayan qadınlar, təbii gözlə belə görünməyən bir mikrobdan qorxub başlarını bağlamağa məcbur oldular. Bu barədə heç düşündünmü? Uca Allah hicabı tövsiyə edərək

1. Bu məqalə “Əziz bacıma nəsihət” kitabından götürülmüşdür, Nəşr edən: “ООО Типография КЕМ”
2. Təfsir ixtisası üzrə bakalavr məzunu, araşdırmaçı, kitabullah-14@mail.ru
3. Hal-hazırda bu epidemiya davam edir. (aprel, 2020).
4. “İsra” surəsi, ayə 67.

qadınların örtünməsini məsləhət bildi. O, hər gün insanları təmizliyə[1] çağırdı. Lakin insanların əksəriyyəti Allah-təalanın bu qanunlarını saymayıb ayaqları altına atdılar.

Belə olduqda, bir gün Qadir Allah bələlərinə dərs vermək və qəflət yuxusundan oyatmaq üçün məcburi olaraq nəinki hicabı, hətta bədən üzvlərinin hər yerini bağlatdırdı. Onlar virusun qorxusundan başlarını, ağızlarını, burunlarını və əllərini belə gizlətməyə məcbur oldular. Günlərlə əl-üzünü yumayan kəslər virusun qorxusundan hər gün mütəmadi olaraq sabunla əllərini və üzlərini yumağa başladılar. Hətta dua etməyi bacarmayan zalım dünya siyasətçiləri belə sağ qalsınlar deyə, öz qəsrlərində Allahı çağırdılar. Bir çoxları virusun adını eşitməklə stress keçirdilər və bu həyəcan nəticəsində dünyasını dəyişdilər.

Allah-təala həqiqətən də bu virusla insanları imtahan etdi.

«أَفَلا تَذَكَّرُونَ»

Heç öyüd-nəsihət almırsınız?![2]

Pandemiya bir çox həqiqətləri üzə çıxardı. Avropada insanlar adi tualet kağızına görə bir-birilərini vəhşi kimi döydülər. Mağazalarda ərzaq üstündə, apteklərdə dərman və maska əldə etmək üçün kütləvi davalar saldılar. İnkişaf etmiş bu dövlətlətlərin bir-birindən külli miqdarda maska oğurluğu belə müşahidə olundu. Belə olduqda, bir gün Qadir Allah bələlərinə dərs vermək və qəflət yuxusundan oyatmaq üçün məcburi olaraq nəinki hicabı, hətta bədən üzvlərinin hər yerini bağlatdırdı.

Allah-təala zalımların (amerikanların) meydana gətirdiyi virusla dünyanı titrətdi. Həqiqətən də, Amerikanı idarə edənlər axmaq yığınıdır. Qərb mədəniyyəti rəngli kağızdan çəkilmiş bir hasara bənzəyir. Bir az yağış və külək üz gətirsə, məhv olub aradan gedəcəkdir. Onlar insanları Allahdan uzaqlaşdırmaq istəsələr də, buna nail olmadılar. Əksinə, dünya xalqları Allaha bir az da yaxınlaşdılar. Bu virus bir tərəfdən zərər və bəla gətirsə də, digər tərəfdən bir neçə faydası da oldu:

1-Bu virusun yayılması təhlükəsinə görə kütləvi surətdə günah məclisləri, kozinolar, əxlaqsızlıq yuvaları bağlandı və zinanın sayı azaldı.

2-Camaat, məxsusən də varlılar - mal, pul, cah-cəlalın onlara kömək etməyəcəyini dərk etdi.

3-Böyük bir güc sayılan amerikanların acizliyi, axmaqlığı və bəşəriyyət düşməni olması dünyaya bir daha isbat oldu.

4-Qiyamət səhnələrindən biri müşahidə olundu.

5-Qədri bilinməyən böyük nemət – "sağlıq" hamıya qiymətli göründü.

6-Ailə üzvləri arasında daha da yaxın rabitə qurmaq üçün fürsət yarandı.

7-İnsanlar, dünyada müxtəlif dillərdə Allahı imdada yetişməyə səslədilər.

1. Məsələn, hər gün ən azı üç dəfə ayaqyolunda yuyunmaq, hər gün ən azı üç dəfə dəstəmaz almaq, həftədə ən azı bir dəfə qüsl (cümə qüslü) etmək, hər gün dişləri yumaq və s.
2. "Nəhl" surəsi, ayə 17.

«وَلَقَدْ أَرْسَلنَآ إِلَى أُمَمٍ مِّن قَبْلِكَ فَأَخَذْنَاهُمْ بِالْبَأْسَاء وَالضَّرَّاء لَعَلَّهُمْ يَتَضَرَّعُونَ».

Şübhəsiz, Biz səndən əvvəlki ümmətlərə (də Peyğəmbərlər) göndərdik. Beləliklə, onları yoxsulluq və kasıblığa, xəstəlik və cismani əziyyətlərə düçar etdik (ki), bəlkə (Bizim dərgahımıza) boyun əyələr və yalvarıb-yaxaralar.[1]

Əziz bacım! Yəqin ki "qurunun oduna yaş da yanar" məsələni eşitmisən. Əgər yaş yanırsa, özü də qurunun oduna yanırsa, "quru" ilə yoldaşlıq etdiyi üçün və nəticədə alışmağa icazə verdiyi üçün yanır. Yaş, yanmamaq üçün ya qurunu öz suyu ilə canlandırmalı, ya da "quru"dan uzaqlaşmalıdır.

Eləcə də əgər günahkar bir cəmiyyətə bəla gələndə möminləri də tutursa, bu, o günahkarlara görə deyil, əslində möminlərin öz səhvinə görədir. Möminlər, günahkarlara görə deyil, əksinə "yaxşılıqlara dəvət və pisliklərdən çəkindirmək" hökmünə əməl etmədikləri üçün bəlaya düçar olurlar.

Məsələnin digər tərəfi isə budur ki, möminlər günah əhli ilə onları günahdan çəkindirmədən rabitədə olduqca, həmin günah həm o möminlər üçün, həm də cəmiyyət üçün adləşir. Buna görə də gələn bəla və od hamı üçün gəlir. Burada kimsə digərinin tüstüsünə boğulmur. Allah-təala birinin günahına görə, digərini cəzalandırmaz.[2]

Əziz bacım! Diqqətini aşağıdakı ayənin (qısa da olsa) təfsirinə yönəltmək istərdim:

«وَاتَّقُواْ فِتْنَةً لاَّ تُصِيبَنَّ الَّذِينَ ظَلَمُواْ مِنكُمْ خَآصَّةً وَاعْلَمُواْ أَنَّ اللّهَ شَدِيدُ الْعِقَابِ».

Qorxun (özünüzü hifz edin) o fitnədən (bəla və müsubətdən) ki, təkcə zalımların ətəyindən tutmaz. (Əksinə, zalımların əməlləri qarşısında susduqlarına görə, bu bəla hamıya çatar). Bilin ki, Allah ağır cəza verəndir.[3]

"Fitnə" kəlməsi Qurani-Kərimdə bir neçə mənada işlənmişdir. O cümlədən; şirk, küfr, bəla, müsibət, sınaq, işkəncə və əzab. Bu ayədə isə "ictimai bəla və müsibətlər" mənasında işlədilmişdir.

Ayədə "fitnə törədən işlərdən çəkinmək" dedikdə, bir qırağa çəkilib guşənişin olmaq nəzərdə tutulmur. Əslində diqqət, insanın ayıq olmasına yönəldilir.

Həzrət Əli (əleyhissalam) buyurur: "Fitnələr zamanı özünüzü iki yaşlı dəvə kimi aparın; sizi nə yükləsinlər, nə də sağsınlar."[4]

- ***Ayədə olan bildirişlər:***

1. Din və İlahi göstərişlərdən boyun qaçırmaq, fitnələrin yaranması və İlahi əzabın nazil olması səbəbidir.
2. Nə fitnə törədin, nə fitnəkarlarla səs-səsə verin, nə də fitnə qarşısında susun!
3. İnsan və cəmiyyətin taleyi onların öz əməllərindən asılıdır.
4. Fərdlər öz əməllərindən əlavə, başqalarının da əməlləri üçün məsuliyyət daşıyır. Çünki bir dəstənin xilaf işi başqaları üçün də təhlükə törədə bilər. Gəmidə öz kayutunu deşən kəs, əslində bütün gəmini batırmaq istəyir.

---

1. "Ənam" surəsi, ayə 42.
2. Müraciət üçün: "Muddəssir" surəsi, ayə 38.
3. "Ənfal" surəsi, ayə 25.
4. "Nəhcul-bəlağə", hikmət 1.

5. İlahi əzabın şiddət və çətinliyinə diqqət, insanı zülm və günahdan çəkindirir.

Əziz Peyğəmbərimiz (salləllahu ələyhi və alihi və səlləm) buyurur: “Allah-təala iki şeyə görə bütün insanlara bəla göndərər:

- Açıq-aşkarda günahın edilməsi.
- Camaatın bu günah qarşısında susması.”[1]

İmam Sadiq (ələyhissalam) Müfəzzələ belə buyurur: “Əgər bir kəs səndən zəlzələnin baş vermə səbəbini soruşsa, ona belə cavab ver: Bunlar, insanların qafil olmaması, günahlardan çəkinməsi və Allahın qüdrəti müqabilində özlərini zəif hesab etməsinə görədir. Bəziləri belə deyirlər ki, əgər dünyanın Mehriban və Rəhimli Yaradanı vardırsa, bəs niyə bu bəlalar və müsibətlər baş verir? Onlar elə fikirləşirlər ki, insanlar dünyada heç bir çətinlik və bəla görməməlidirlər. Halbuki, əgər bəşəriyyət həmişə rifah içində olsa, lovğalıq, sərxoşluq və rahatlıq onları fəsada (günaha) tərəf çəkər. Nəticədə isə aləmlərin Yaradıcısını, hətta özlərinin insan olduqlarını belə unudarlar. Həqiqət budur ki, insan çətinlik və müsibətlə üzləşəndə onun acısını dadır, moizə olunur, qəflətdən ayılır, öz vəzifələrini anlayır və bunların hamısını dərk edir.

Ey Müfəzzəl! Heç bilirsənmi, bəlaları faydasız və hikmətsiz hesab edən kəslər kimə bənzəyirlər? Onlar, acı və şəfalı dərmanlara əhəmiyyət verməyən, zərərli yeməklərdən uzaqlaşdırılanda qəzəblənən, bekarçılığı və oynamağı sevən uşaqlara bənzəyirlər.”

İmam (ələyhissalam) sözünün davamında yenə də buyurur: “Əgər səndən - nə üçün bəlalar, həm fasiqlər,[2] həm də möminlər üçün gəlir? - deyə soruşsalar, onlara belə cavab ver: Bu bəlalara salehlərin və fasiqlərin düçar olmasına baxmayaraq, Allah-təala həmin işdə onların hər ikisi üçün mənfəət qoymuşdur. Çünki salehlər çətinliyə düşəndə Allahın keçmiş nemətlərini yada salır, Ona şükür edir və öz işlərində səbrə üstünlük verirlər. Fasiqlər isə bu bəlaya tutulmaqla qürurları sınır, az da olsa, qorxuya düşür, günahdan və fəsaddan pəhriz[3] edirlər.”[4]

Hicab - qadın əmniyyətinin və gözəlliyinin əvəzolunmaz sığortasıdır.

Hicab – Uca Allahın qadına bəxş etdiyi rəhmət və mərhəmət örtüyüdür.

Hicab – İlahi gözəlliyin nişanəsidir.

İmam Sadiq (ələyhissalam) buyurur: “Gözəl geyin, zinətlən! Allah Gözəldir və gözəlliyi sevir. Lakin bu gözəllik pak və halal olmalıdır.”

Qadının gözəlliyi onun zahiri çılpaqlığında yox, əksinə onun mənəvi cazibədarlığındadır. Zahiri gözəllik-məcazi və keçici, batini gözəllik isə həqiqi və daimidir.

Özün də bilirsən ki, səndə olan bu “müvəqqəti gözəllik” çox qalmayacaq və bir gün solacaq, nəhayətdə isə çürüyəcək. Elə isə, öz gözəlliyinlə heç zaman öyünmə!

---

1. “Nur təfsiri”, Muhsin Qiraəti, c. 4, həmin ayənin təfsirində.
2. Günahkarlar.
3. Əslində pərhiz.
4. “Tohide Mufəzzəl”, səh. 131, 132, 155.

Sən çox dəyərlisən. Sən çox qiymətlisən. Dünyada heç nə və heç kim sənin qiymət və dəyərini azaltmağa qadir deyil. Ümidsizliklərin və yalançı vəsvəsələrin sənin gələcək arzularına kölgə salmağına imkan vermə!

- Bil ki, sənin Gözəl Allahın var.
- Bil ki, səni Yaradanın var.
- Bil ki, sənə Məhəbbət Edən var.
- Bil ki, sənə Nəzər Edən var.
- Bil ki, sənə Ruzi Verən var.
- Bil ki, səni Qoruyan var. Bil ki...

Elə isə, dəyər və qiymətini hiss et! Xalis tövbə edərək Allaha tərəf qayıt! O, tövbələri Qəbul Edəndir. Ondan heç vaxt küsmə! O, səni bağışlayacaq. Şad və düzgün yaşamağa çalış! Bil ki, sənin dəyərin - özün, varlığın, vücudun, insanlığın və ən əsası isə HİCABINDIR.

Allah-təala səni və sənin timsalında olan bütün Azərbaycan xanımlarını doğru yola hidayət etsin və aqibətiniz xeyirli olsun!

**Mənbələr**

1) Qurani-Kərim.
2) Nəhcul-bəlağə.
3) “Nur təfsiri”, Muhsin Qiraəti.
4) “Tohide Mufəzzəl.”

پژوهشگاه علوم انسانی و مطالعات فرهنگی
پرتال جامع علوم انسانی